# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 24 may tarixli 75 nömrəli, "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2004-cü il 12 iyul tarixli 93 nömrəli və "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 10 yanvar tarixli 4 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli və "Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 655-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391; 2005, № 4, maddə 377, № 6, maddə 548; 2007, № 2, maddələr 197, 201; 2008, № 2, maddə 105, № 9, maddə 862; 2009, № 11, maddə 936; 2012, № 1, maddə 44; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1596; 2017, № 6, maddə 1237, № 10, maddə 1934, № 11, maddələr 2153, 2159; 2018, № 4, maddə 782, № 10, maddə 2181,

№ 12 (II kitab), maddə 2750; 2019, № 3, maddə 539, № 6, maddə 1143, № 7, maddə 1337, № 12, maddə 2079; 2020, № 4, maddə 492) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4.1.14-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.4.1.15-ci yarımbənd ləğv edilsin;

1.2. 2.6-cı bəndin birinci cümləsindən, 3.3-cü bənddən (hər iki halda) və 3.7-ci bəndin ikinci cümləsindən (hər iki halda) “büdcə qaydasına uyğun hesablanmış” sözləri çıxarılsın;

1.3. 3.4.9-cu yarımbənd ləğv edilsin;

1.4. 3.4.11-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.4.11. cari ilin ötən dövrü üçün xalis maliyyə aktivləri barədə arayış.”;

1.5. 3.5.2-ci yarımbənddə “mühüm investisiya layihələrini” sözləri “investisiya layihələrinin sahələr və istiqamətlər üzrə ümumi məbləğlərini” sözləri ilə, həmin yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.5.3-cü yarımbənd ləğv edilsin;

1.6. 5.4-cü bənddən “aylıq,” sözü çıxarılsın;

1.7. 5.5-3-cü bəndə “tərəfindən” sözündən sonra “yarımillik və illik dövriliklə” sözləri əlavə edilsin;

1.8. 5.21-ci bəndin birinci abzasının ikinci cümləsində “hissəsi” sözü “hissəsi qədər olan həcmdə” sözləri ilə əvəz edilsin və dördüncü cümləsinə “qalan hissəsi” sözlərindən sonra “(qanunla müəyyən edilən hallar istisna olmaqla)” sözləri əlavə edilsin;

1.9. 5.33-cü bəndin üçüncü cümləsi çıxarılsın;

1.10. 5.42-ci bəndin altıncı abzasından “birdəfəlik təyinatlı” sözləri çıxarılsın;

1.11. 7.2-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“7.2-1. Dövlət borcunun əsas məbləğinin qaytarılması üzrə ödənişlər cari büdcə ili ərzində cəlb edilən dövlət borcalması hesabına təmin edildikdə, bu ödənişlərin həmin ilin dövlət büdcəsində dövlət borcuna xidmət edilməsi ilə bağlı nəzərdə tutulan xərclərdən artıq olan hissəsi dövlət büdcəsinin xərclərinə aid edilmir.”;

1.12. 8.3-cü bəndə birinci halda “büdcədənkənar” sözündən əvvəl “Qanunun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan” sözləri, ikinci halda “büdcədənkənar” sözündən əvvəl “həmin” sözü əlavə edilsin.

2. “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların

əlaqələndirilməsinə dair Tədbirlər planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 584; 2008, № 2, maddə 130; 2009, № 11, maddə 936; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 7, maddə 1343; 2017, № 2, maddə 325, № 5, maddə 984; 2018, № 1, maddə 121; 2019, № 5, maddə 968; 2020, № 9, maddə 1234; 2021, № 6 (IV kitab), maddə 667, № 9, maddə 1071) aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda büdcədənkənar dövlət fondları dedikdə, Azərbaycan Respublikasının Dövlət Neft Fondu, dövlət sosial müdafiə fondu və işsizlikdən sığorta fondu nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62; 2022, № 5, maddələr 550, 567) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2.2-ci yarımbənddə "qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin" sözləri "qaydasının" sözü ilə əvəz edilsin;

3.2. 4.10.19-cu yarımbənddən "və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"na" sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 2 fevral 2023-cü il

№ 30

Xalq qəzeti .- 2023.- 5 fevral.- S.2.